Caspian Engineering Solutions
Warranty of Quality

# Rüşvətxorluq əleyhinə siyasət

Rüşvətxorluq əleyhinə nəzərdə tutulmuş siyasət fərdlər və təşkilatlar qarşısında məsuliyyət yaradır, belə ki, onlar dünyanın hər hansı bir yerində olmasından asılı olmayaraq şirkətin işləri ilə əlaqədar rüşvət versələr və ya alsalar onlar bununla əlaqədar məsuliyyət daşıyacaqlar. Rüşvətlə əlaqədar şübhələndirildikdə, ittiham olunduqda və ya rüşvətdə iştirak etdikdə bu şirkət və onun işçiləri qarşısında ciddi məsuliyyət yaradır. İttiham şirkətin gələcəyini şübhə altına ala bilər.

Şirkətin rəhbər işçiləri "Caspian Engineering Solution" MMC-nin etik şəkildə fəaliyyət göstərməsi üçün bütün imkanlardan istifadə edəcəklər. Rüşvətxorluq və korrupsiya formasından asılı olmayarq qəbuledilməzdir. Bizim gözləntimiz odur ki, bizim işçilərimiz, biznes tərəfdaşlarımız və agentlərimiz hər zaman ədalətlə, vicdanla və etik şəkildə işləyəcəklər.

Nağd və ya köçürmə şəklində olmasından, harada verilməsindən, verildiyi rəsmi və ya özəl şəxs olmasından asılı olmayaraq rüşvətin verilməsi qeyri etikdir və bu şirkət maraqlarından və ya şəxsi maraqlardan olmasından asılı olmayaraq qəbul edilməz hesab ediləcəkdir.

Bununla əlaqədar qərarların qəbul edilməsi də asan iş deyil. Əgər siz hər hansı bir hərəkətin rüşvət olub olmaması barədə şübhə edirsinizsə bununla əlaqədar Əməliyyat Menecerinə və ya KSƏTƏM-ə müraciət edin.

"Caspian Engineering Solution" MMC-nin adından fəaliyyət göstərən hər bir şəxs rüşvətxorluğun qarşısını almalı, onu aşkar etməli və bu haqda məlumat verməlidir. "Caspian Engineering Solution" MMC daxilində hər hansı bir işçiyə rüşvət verildikdə digər işçilər bununla əlaqədar şübhələnmələri barədə hesabat verməlidirlər. Hətta sonradan rüşvətxorluğun olmadığı aşkar olunduqda belə siz bu haqda məlumat verdiyinizə görə dəstəklənəcəksiniz.

Rüşvətxorluqla əlaqədar şübhə olduqda şirkət bununla əlaqədar tam araşdırma aparacaq və rüşvətxorluq aşkar edildikdə şirkət özünün intizam prosedurlarından istifadə edəcəkdir, bu tədbirlər yanlış fəaliyyətin aşkar edilməsindən və dərhal işdən kənarlaşdırmadan ibarətdir. Əgər rüşvətxorluq bizim təchizatçılarımız, biznes tərəfdaşlarımız və ya agentlərimiz tərəfindən törədilərsə biznes əlaqələri dərhal və daimi olaraq dayandırılacaqdır.

Rüşvətxorluq əleyhinə siyasət və sizin öhdəliklərinizlə əlaqədar hər hansı bir sualınız olarsa xahiş edirik ki, bu haqda menecerə məlumat verəsiniz.

Camaləddin Əliyev

Direktor

AZƏRBAYCAN RESPUBLİKASI MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ CASPIAN ENGINEERING SOLUTIONS LIMITED LIABILITY COMPANY AZERBAIJAN REPUBLIC